Azərbaycan. - 2025.- 9 sentyabr (№ 191).- S.5.

# Ağ Evdə imzalanan sənədlər Cənubi Qafqazın inkişafına töhfə verəcək

Avqustun 8-də Vaşinqtonda keçirilən üçtərəfli görüşün nəticəsi olaraq sülh sazişinin paraflanması ilə Cənubi Qafqazda yeni strateji arxitekturanın əsası qoyuldu. Azərbaycan Prezidentinin Ağ Evdə keçirilən görüşü və mətbuat qarşısında bəyanatı ölkəmizin beynəlxalq münasibətlər tarixində mühüm hadisə kimi yadda qaldı.

Vaşinqton görüşünün əhəmiyyətini yüksək qiymətləndirən Prezident İlham Əliyev demişdir: "Bu gün biz Azərbaycan ilə ABŞ arasında ikitərəfli, dövlətlərarası münasibətlərdə yeni tarix yazırıq. Biz strateji tərəfdaşlıq yoluna qədəm qoyuruq və bir neçə ay ərzində Strateji Tərəfdaşlıq Xartiyası işlənib hazırlanacaq. Bu isə Azərbaycan üçün tarixi nailiyyətdir. Çünki dünyanın ən qüdrətli ölkəsi ilə strateji tərəfdaşlıq münasibətlərinə malik olmaq həm fürsət, həm də məsuliyyətdir". "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında" Anlaşma Memorandumuna əsasən, qarşıdakı altı ay ərzində enerji, ticarət, tranzit, süni intellekt, rəqəmsal infrastruktur, müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlığı gücləndirəcək Strateji Tərəfdaşlıq Xartiyası hazırlanacaq.

Səfərin nəticəsi olaraq, ABŞ Prezidenti tərəfindən "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə sərəncamın imzalanması Azərbaycan-ABŞ münasibətlərində uzun illər davam edən tarixi ədalətsizliyin aradan qaldırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Bu məsələyə münasibət bildirən dövlətimizin başçısı demişdir: "Azərbaycana qarşı həmin məhdudiyyətlər 1992-ci ildə - müstəqilliyimizin bərpasından cəmi bir il sonra tətbiq edilmişdi. Bu gün, 33 ildən sonra həmin ədalətsizlik aradan qaldırıldı. Bu hadisə Azərbaycan xalqının yaddaşına həm qürur, həm də Prezident Trampa minnətdarlıq hissi ilə həkk olunacaq".

Prezident onu da əlavə etdi ki, "Prezident Tramp və onun komandası, eləcə də dostumuz Stiven Uitkoff olmasaydı, Ermənistan və Azərbaycan hələ də sonsuz danışıqlar prosesində qala bilərdilər".

Xatırladaq ki, Azərbaycan tərəfinin sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü iki prinsipial təklifi həll olunmamış qalırdı: ATƏT-in Minsk qrupunun tarixi missiyasını tamamlaması və ləğvi ilə bağlı müraciət, Ermənistan konstitusiyasından ölkəmizə qarşı ərazi iddialarının çıxarılması. Qeyd edək ki, hər iki təklif Ermənistan tərəfindən qəbul edildi. Bu fakt özü göstərir ki, artıq Qarabağ münaqişəsinin səhifəsi bağlanır, Azərbaycanın savaş meydanında qazandığı Zəfər diplomatiya masasında da təsdiqlənir.

Ağ Evdə imzalanan sənədlər yalnız Azərbaycan-ABŞ münasibətlərini yeni mərhələyə daşımaqla kifayətlənmir, həm də Cənubi Qafqazın taleyini dəyişdirəcək gücə malikdir. Görüşdə diqqətçəkən məqamlardan biri də "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu" layihəsinin təsdiqlənməsi oldu. Azərbaycanı Naxçıvanla birləşdirəcək bu strateji yol təkcə iqtisadi arteriya deyil, həm də xalqları yaxınlaşdıracaq dostluq körpüsüdür. Bu marşrut Ermənistan üçün də yeni nəfəs, yeni imkanlar, yeni sabah deməkdir.

Azərbaycanın regional logistika mərkəzinə çevrilməsi, etibarlı tərəfdaş statusunu möhkəmləndirməsi, beynəlxalq siyasətdə nüfuzunun artması bu prosesin təbii nəticəsidir. Bir sözlə, Vaşinqton görüşü - savaşdan doğan sülhün, qələbədən doğan ədalətin siyasi bəyannaməsi kimi tarixə yazıldı. İmzalanan Birgə Bəyannamə həm Cənubi Qafqazda, həm də daha geniş geosiyasi məkanda mühüm dönüş nöqtəsi kimi tarixə düşdü. Azərbaycanın etibarlı enerji tərəfdaşı statusu, Avropanın enerji təhlükəsizliyində oynadığı rol, "yaşıl enerji" layihələri və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində əməkdaşlıq strateji gündəliyin əsas prioritetləri sırasındadır. Eyni zamanda rəqəmsal texnologiyaların tətbiqi və müdafiə sənayesi üzrə əməkdaşlıq perspektivləri də müəyyənləşdirildi. Beləliklə, əldə olunan razılaşmalar və verilən mesajlar göstərir ki, Azərbaycan regional sülhün, iqtisadi inkişafın və beynəlxalq əməkdaşlığın etibarlı tərəfdaşı kimi dünyada mövqeyini daha da möhkəmləndirir.

Sözsüz ki, əldə olunan razılaşma heç də təsadüfi deyil - bu, Azərbaycanın uzun illər ərzində ardıcıl, sistemli və qətiyyətli siyasətinin məntiqi nəticəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasi kurs bir daha sübut etdi ki, Bakı düşünülmüş və planlı addımlar sayəsində regional balansı dəyişməyi, tarixin gedişatına təsir göstərməyi bacarır.

Azərbaycanın diplomatik qələbəsinin mühüm amili onun balanslaşdırılmış xarici siyasət modelidir. Bu model bir daha göstərdi ki, beynəlxalq münasibətlərdə "kiçik dövlət, böyük güc" anlayışı nisbi xarakter daşıyır. Əsas olan - düşünülmüş, qətiyyətli və praqmatik müstəqil siyasət yürütmək bacarığıdır...

8 avqust Cənubi Qafqazın siyasi tarixinə qızıl hərflərlə yazılan bir gün oldu. Dövlətimizin başçısı bu günün tarixi qiymətini belə dəyərləndirdi: "Bu, həqiqətən, tarixi gündür - biz Qafqazda sülhü bərqərar edirik və bu fürsət təkcə bizim regionla məhdudlaşmayacaq. Prezident Trampın düzgün qeyd etdiyi kimi, "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" yeni bağlantı əlaqələri yaradacaq, sədləri aradan qaldıracaq və sərmayələr, firavanlıq, sabitlik sayəsində çoxsaylı ölkələr üçün bağlantı imkanları yaradacaq. Azərbaycan və Ermənistan Sovet İttifaqının süqutu nəticəsində eyni vaxtda müstəqillik əldə edib. Ancaq artıq o vaxt biz müharibə şəraitində idik. Biz müharibələrə, işğal dövrünə və qan tökülməsinə uzun illər sərf etdik. Bu gün tarixi gündür, çünki biz sülhü bərqərar edirik. Prezident Tramp Qafqaza sülh gətirir və biz buna görə ona minnətdarıq. Əminəm ki, Ermənistan ilə Azərbaycan sülhün əldə olunması üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlarımız da barışacaqlar. Biz qarşıdurma və qan tökülməsi səhifəsini çevirəcəyik, uşaqlarımız üçün işıqlı və təhlükəsiz gələcək təmin edəcəyik. Mən çox şadam ki, biz bu gün yeni, gözəl tarix yazırıq".

Vaşinqtonda paraflanan saziş Azərbaycanı təkcə regionda deyil, beynəlxalq müstəvidə də proseslərin əsas aktoruna çevirdi. İndi Cənubi Qafqazdakı bütün oyunçular - istər regional, istərsə də qlobal güclər anlayırlar ki, Bakının razılığı və iştirakı olmadan bölgədə mühüm qərarlar qəbul etmək mümkün deyil.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*